UOT 581.2. 632. 4. 9. 635.8

ÇƏYİRDƏKLİ MEYVƏ BİTKİLƏRİNİN FİTOPATOLOJİ TƏDQİQİ

İSMAYIL MƏCİDLİ[*], ƏMİNƏ RƏKİDƏ

Azərbaycan Respublikası Elm və Təhsil Nazirliyi Genetik Ehtiyatlar İnstitutu, Bakı ş., AZ 1106, Azadlıq pr. 155
mecidli-ismayil@mail.ru

Məqalədə Genetik Ehtiyatlar İnstitutunun Tovuz və Ağdaş Elmi Tədqiqat Bazalarının genofond bağlarında *ex-situ* şəraitində yetişdirilən çəyirdəkli meyvə bitkilərinin (ərik, şaftalı, gilas, alça, gavalı, albuxara, göyəm, zoğal, əzgil) göbələk xəstəliklərilə sirayətlənmələrinin fitopatoloyi qiymətləndirilmələrindən bəhs edilir. Ffitopatoloyi qiymətləndirilmələr zamanı müşahidə edilən göbələk xəstəliklərinə immunluq, yüksək davamlılıq, davamlılıq və tolerantlıq nümayış etdirmiş sort və formalar ənənəvi və marker əsaslı seleksiya işlərinin aparılmasına cəlb ediləcəkdir. Müşahidələr zamanı Ətirli şaftalı sortunun yarpaqlarında 1-2 balla klasterosporioz *(Clasterosporium carpophilum* (Lév.) xəstəliyi, meyvələrinin isə monilial yanığı-moniliozu və ya boz çürüməsi (*Monilinia laxa* (Aderh.) xəstəiyi 1-2 balla qeydə alınmışdır. Əlibəyli Şaftalı sortunda yarpaq qıvrılması xəstəliyi 2-3 balla *(Taphrina deformans* (Berk.) aşkar edilmişdir. Ərik sort və formalarında klasterosporioz (*Clasterosporium carpophilum* Lev.) xəstəliyi (Ətirli, May-Goranboy, Ərik-Füzuli, Sahibə, Mürəbbə ərik) 1-2 balla, yarpaq qıvrılması (*Taphrina deformans* Berk.) (Zeynəbi tüksüz, Badamı) xəstəliyi 2 balla qeydə alınmışdır. Gilas sort və formalarında (Öküzürəyi, Qara gilas-Quba) kokkomikoz (*Coccomyces hiemalis* Higg.) xəstəliyi 1-2 balla, monilial yanıq-monilioz və ya boz çürüməsi (*Monilinia laxa* (Aderh.) 1-2 balla və klasterosporioz (*Clasterosporium carpophilum* Lev.) xəstəlikləri 1-2 balla qeydə alınmışdır. Alça sort və formalarında klasterosporioz (*Clasterosporium carpophilum* Lev.) xəstəliyi (Rəcəbli-1, Qırmızı alça) 1-2 balla qeydə alınmışdır. Məshəti göyəm sortunun yarpaqlarında 2 balla klasterosporioz *(Clasterosporium carpophilum* (Lév.) xəstəliyi, qeydə alınmışdır. Gavalı sort və formalarında klasterosporioz (*Clasterosporium carpophilum* Lev.) xəstəliyi (Yapon, Yastı yapon, Sarı gavalı-GETM, Qax gavalı, Xırda göyəm, Qara gavalı) 1-2 balla, yarpaq yanıqlığı (Qırmızı gavalı, Sarı uzun, Qara albuxara, Xətmi gavalı) 1-2 balla qeydə alınmışdır. Nektarin şaftalısında, Göycəsoltan alça və Super gavalı, Zoğal (Armudvari), Əzgil (Kəmərli) sortlarında heç bir xəstəlik müşahidə edilməmişdir.

Açar sözlər: *çəyirdəkli meyvələr, ex-situ, Clasterosporium carpophilum* (Lév.), *Monilinia laxa* (Aderh.), *Taphrina deformans* (Berk.), *Coccomyces hiemalis* Higg.

GİRİŞ

Respublikamızın coğrafiyasında, mətbəxində və ənənəvi təsərrüfatında çəyirdəkli meyvələr xüsusi yer tutur. Bu meyvələr həm qida dəyəri, həm də insan sağlamlığı üçün əhəmiyyətli rol oynayır. Çəyirdəkli meyvələr həm geniş yayılmış bağ bitkiləri kimi, həm də təbii flora elementləri kimi bölgəmizdə zəngin çeşiddə mövcuddur.

Çəyirdəkli meyvələr – elmi dillə *"drupe"* adlanır – morfoloji baxımdan özündə bir neçə səciyyəvi xüsusiyyətlər daşıyır. Onların əsas xüsusiyyəti içərisində bərk, oduncaqlı və bir və ya bir neçə toxumdan ibarət çəyirdəyin olmasıdır. Meyvənin əti adətən şirəli, ətirli, vitamin və minerallarla zəngin olur. Çəyirdək, əsasən, bitkinin nəsilartırma funksiyasını yerinə yetirir və yeni bitkilərin yaranmasına şərait yaradır. Çəyirdəkli meyvələrin səthi hamar, bəzən isə tüklü və ya nazik dərili ola bilər. Bu tip meyvələrdə vitamin C, A, kalium, maqnezium, dəmir, lif və müxtəlif antioksidant maddələr bol olur. Çəyirdəkli meyvələr həzm sistemini tənzimləyir, immuniteti gücləndirir, ürək-damar xəstəliklərinin qarşısını alır, dərinin və gözlərin sağlamlığını qoruyur. Bu meyvələrin təzə, qurudulmuş və ya emal olunmuş formada istifadə edilməsi geniş yayılıb. Azərbaycanda ən çox yetişdirilən və istifadə olunan çəyirdəkli meyvələrə albalı, gilas, ərik, şaftalı, gavalı, albuxara, alça, göyəm, əzgil daxildir.

https://doi.org/10.61642/202629
Available online 10 June 2026

Tarixi mənbələrə və arxeoloji tapıntılara əsasən, Azərbaycan ərazisi qədim zamanlardan çəyirdəkli meyvələrin becərilməsi və istifadə edilməsi baxımından zəngin ənənələrə malikdir. Bu tip meyvələrin, həmçinin iqtisadi, ekoloji və mədəni dəyəri də böyükdür. Müasir dövrdə çəyirdəkli meyvələr həm təzə halda, həm də emal olunmuş məhsullar (mürəbbə, kompot, şirə və s.) şəklində insanların gündəlik rasionunun ayrılmaz hissəsinə çevrilib. Çəyirdəkli meyvələrin növləri, biologiyası, faydaları, becərilməsi və saxlanma qaydaları haqqında geniş və əhatəli məlumat əldə etmək təkcə maraq üçün deyil, həm də sağlam və düzgün qidalanma baxımından vacibdir. Bu meyvələrin xüsusiyyətlərini və insan həyatında oynadığı rolu bilmək, eyni zamanda, kənd təsərrüfatı və bağçılıq fəaliyyəti ilə məşğul olanlar üçün də olduqca faydalıdır.

MATERİAL VƏ METODLAR

Genetik Ehtiyatlar İnstitutunun Tovuz və Ağdaş Elmi Tədqiqat Bazalarının genofond bağlarında *ex-situ* şəraitində yetişdirilən çəyirdəkli meyvə bitkilərinin (ərik, şaftalı, gilas, alça, gavalı, albuxara, göyəm) göbələk xəstəliklərilə (klasterosporioz, yarpaq qıvrılması, monilial yanığı-monilioz və ya boz çürüməsi, kokkomikoz) fitopatoloyi qiymətləndirilmələri Q. A.Lobanovun (1980), V.M.Tarasovun (1981), Y.T.Dyakov və b. (2001), K.V.Popkova, V.A. Şkalikov və Y.M. Stroykovun (2005), M.M. Levitinin (2018) metodikaları əsasında 5 ballı şkala üzrə: (0 bal - yoluxma yoxdur; 1 bal – yarpaq səthinin 10%-ə qədəri yoluxur; 2 bal – yarpaq səthinin 11-25%-i yoluxur; 3 bal – yarpaq səthinin 26-50%-i yoluxur; 4 bal – yarpaq səthinin 50%-dən çoxu yoluxur) tədqiq edilərək fitopatoloji qiymətləndirmələr aparılmışdır.

NƏTİCƏLƏR VƏ ONLARIN MÜZAKİRƏSİ

İnstitutun Tovuz və Ağdaş Elmi Tədqiqat Bazalarının genofond bağlarında *ex-situ* şəraitində yetişdirilən çəyirdəkli meyvə bitkilərinin vegetasiya mövsümü ərzində aparılmış fitopatoloji müşahidələri zamanı ağaclarda göbələk xəstəliklərindən əsasən klasterosporioz *(Clasterosporium carpophilum* (Lév.), meyvələrin monilial yanığı - moniliozu və ya boz çürüməsi *(Monilinia laxa* (Aderh.*),* yarpaq qıvrılması *(Taphrina deformans* (Berk.) və kokkomikoz *(Coccomyces hiemalis* Higg.*)* xəstəlikləri aşkar edilmişdir.

Bütün çəyirdəklilər əsasən isə ərik və şaftalı klasterosporioz *(Clasterosporium carpophilum* (Lév.) xəstəliyilə sirayətlənmişlər. Erkən yazda havaların bu xəstəliyin inkişafı üçün əlverişli keçdiyindən, bağdakı digər çəyirdəkli meyvə bitkiləri də (alça, göyəm, gilas, gavalı) bu xəstəliklə sirayətlənmişlər. Son illər xəstəlik alcada, gavalıda, albalı və gilasda da geniş yayılmışdır. Boy və çiçək tumurcuqları, yarpaqlar, meyvələr, zoğ və budaqlar xəstəliklə yoluxurlar.

Xəstəlik şaftalıda yarpaq və budaqlarda, ərikdə, albalı və gilasda isə yarpaq və meyvələrdə güclü inkişaf edir. Yarpaqların yoluxması nisbətən xarakterik olur. Onlar üzərində əvvəlcə xırda, qırmızıvari ləkələr əmələ gəlir. Ləkələrin kənarları sonradan qeyri-müəyyən haşiyəli, mərkəzi hissəsi açıq-sarı, və ya qonur rəngli olur. Ləkələr ölçüsünə və formasına görə müxtəlif olurlar. Yarpağın yoluxmuş sahələrində deşiklər əmələ gətirir. Məhz elə bu səbəbdən də xəstəliyə bəzən "*deşikli xallama"* da deyilir. Xəstəlik güclü inkişaf etdikdə yarpaqlar tökülürlər (Həsənov 2007; Məcidli, 2019).

Bu xəstəlik Ətirli şaftalı və ərik sort və formalarında (Ətirli, May-Goranboy, Ərik-Füzuli, Sahibə, Mürəbbə ərik), alça sort və formalarında (Rəcəbli-1, Qırmızı alça), gavalı sort və formalarında (Yapon, Yastı yapon, Sarı gavalı-GETM, Qax gavalı, Xırda göyəm, Qara gavalı), gilas sort və formalarında (Öküzürəyi, Qara gilas-Quba) isə 1-2 balla, göyəm sortunun yarpaqlarında (Məshəti) 2 balla qeydə alınmışdır (Cədvəl 1).

Göbələk sporlarının intensiv yayılması əsasən yaz fəsli ərəfəsində olsa da o, bütün yay boyu davam edir. İyul ayında da xəstəliyin kütləvi yayılması müşahidə olunur. Göbələk öz inkişafını sakitlik dövründə-payız və qışda da davam etdirərək ağacın tumurcuq və zoğlarını yoluxdurur.

Odur ki, xəstəliyin ziyanı böyükdür. O, ağacları zəiflədir, tumurcuqların tökülməsi ilə məhsuldarlığı aşağı salır və meyvənin xarici görünüşünü korlayır (Şəkil 1).



Şəkil 1. Klasterosporiozla *(Clasterosporium carpophilum* (Lév.) sirayətlənmiş ərik və şaftalı meyvə və yarpaqları

Cədvəl 1.

Çəyirdəkli meyvə bitkilərinin fitopatoloji qiymətləndirilməsi

№	Sort və formalar	Xəstəliklər, ball			
		Klasterosporioz	Monilioz	Kokkomikoz	Yarpaq qıvrılması
1.	Şaftalı	1-2	2	-	2-3
2.	Ərik	1-2	2-3	-	2
3	Gilas	1-2	1-2	1-2	-
4.	Alça	1-2	1-2	-	-
5.	Göyəm	2	-	-	-
6.	Gavalı	1-2	1-2	-	-

Çəyirdəkli bitkilərdə geniş yayılmış xəstəliklərdən biri də meyvələrin monilial yanığı-moniliozu və ya boz çürüməsi *(Monilinia laxa* (Aderh.*)* xəstəliyidir. Xəstəlik ərikdə, albalı və gavalıda geniş yayılmışdır. Çiçəkləmədən dərhal sonra xəstəliyin ilkin əlamətləri ağacın ayrı-ayrı budaqlarının birdən quruması ilə təzahür edir. Xəstəliyə yoluxmuş yarpaqlar, çiçəklər bozarıb quruyaraq uzun müddət ağacdan asılı qalırlar. Göbələyin intensiv inkişafı zamanı ağacın bütün çiçək və zoğları odla qarsılanmış-yanmış bir görkəm aldığı üçün xəstəlik monilial yanığ adlanır (Həsənov, 2007; Məcidli, 2019).).

Meyvələrin yoluxması həşarat və dolu vurma zamanı əmələ gəlmiş zədələnmə yerlərindən baş verir. Çürümüş meyvələr bəzən quruyaraq yaza qədər ağacdan asılı halda qalırlar (Şəkil 2, 3).



Şəkil 2. Gilas meyvələrinin monilial yanığı-moniliozu və ya boz çürüməsi *(Monilinia laxa* (Aderh.*),* xəstəliyi

Meyvələrin monilial yanığı-moniliozu və ya boz çürüməsi *(Monilinia laxa* (Aderh.*)* xəstəliyi şaftalı sortunda 1-2 balla, ərik sort və formalarında (İri ağ ərik-Eıçin, Şəkəri) 2-3 balla, alça sort və formalarında (Qırmızı mürəbbə-şah) 1-2 balla, gavalı sort və formalarında (Qırmızı gavalı,

Sarı uzun, Qara albuxara, Xətmi gavalı) 1-2 balla, gilas sort və formalarında (Öküzürəyi, Qara gilas-Quba) 1-2 balla qeydə alınmışdır (Cədvəl 1).



Şəkil 3. Şaftalı meyvələrinin monilial yanığı-moniliozu və ya boz çürüməsi *(Monilinia laxa* (Aderh.*)*, xəstəliyi

Müşahidələr zamanı qeydə alınan növbəti xəstəlik gilas sort və formalarının (Öküzürəyi, Qara gilas-Quba) sirayətləndyi kokkomikozdur (*Coccomyces hiemalis* Higg.). Bu gilas sort və formalarında xəstəlik 1-2 balla qeydə alınmışdır (Cədvəl 1).

Göbələklə gilasın cavan odunlaşmamış saplağı və albalı meyvələri də yoluxur. Yarpaqların üzərində tünd-boz rəngli, xırda, çoxsaylı sıx ləkələr əmələ gəlir. Yarpaqların altında isə ləkələrin yerində çəhrayı-ağ göbələk yastıqcıqları aydın görünür. Meyvələrin üzərində qəhvəyi rəngli ağımtıl göbələk örtüklü, kifayət qədər iri, basıq ləkələr əmələ gəlir. Xəstəliyin ilkin əlamətləri iyunun birinci yarısında təzahür edir. Yay ərzində bir neçə yoluxma ilə xəstəlik kütləvi şəkildə yayıla bilir. Yoluxmanın ilk günlərində olan atmosfer çöküntüləri xəstəliyin inkişafında əsas rol oynayır. Xəstəlik ağacların şaxtaya dözümlüyünü aşağı salır (Həsənov, 2007; Məcidli, 2019). (Şəkil 4).



Şəkil 4. Kokkomikoz xəstəliyilə (*Coccomyces hiemalis* Higg.) sirayətlənmiş gilas yarpaqları

Fitopatoloji qiymətləndirmə zamanı qeydə alınan növbəti xəstəlik törədicisi *Taphrina deformans* (Berk.) Tul. göbələyi olan yarpaq qıvrılmasıdır. Müşahidələr zamanı şaftalı sortunda (Əlibəyli) yarpaq qıvrılması xəstəliyi 2-3 balla, ərik sort və formalarında (*Taphrina deformans* Berk.) (Zeynəbi tüksüz, Badamı) isə 2 balla qeydə alınmışdır (Cədvəl 1).

Xəstəlik geniş yayılmaqla, ilkin əlamətləri erkən yazda, yarpaqlar açılandan sonra təzahür edir. Yoluxmuş cavan yarpaqların üzəri dalğalı olub, qıvrılırlar. Xəstə yarpaqlar qalınlaşaraq, elastikliyini itirib, kövrək və əyri olurlar. Yoluxma yerləri sarı-qırmızı və ya açıq-yaşıl rəngə boyanır. Belə yarpaqlar tezliklə quruyub tökülür və xəstəliyin güclü inkişafı zamanı ağaclar tamamilə çılpaq qalırlar (Şəkil 5).

Bu zaman tumurcuqlar tökülür, ağacdakı meyvələr isə yetişmirlər. Xəstə ağacların böyüməsi və inkişafı geri qaldığından onların şaxtaya davamlılığı zəifləyir. Yarpaqlardan əlavə xəstəliyə bəzən meyvələr də yoluxur. Belə meyvələrin səthi nahamar olub, üzərində bəzən çatlar əmələ gəlir. Xəstəliyə yoluxmuş zoğlar qalınlaşaraq əyilirlər (Həsənov, 2007; Məcidli, 2019).

Nektarin şaftalısında, Göycəsoltan alça və Super gavalı, Zoğal (Armudvari), Əzgil (Kəmərli) sortlarında heç bir xəstəlik müşahidə edilməmişdir.



Şəkil 5. Yarpaq qıvrılması (*Taphrina deformans* (Berk.) xəstəliyi ilə sirayətlənmiş ərik və şaftalı yarpaqları

NƏTİCƏ

Genetik Ehtiyatlar İnstitutunun Tovuz və Ağdaş Elmi Tədqiqat Bazalarının genofond bağlarında *ex-situ* şəraitində yetişdirilən çəyirdəkli meyvə bitkilərinin (ərik, şaftalı, gilas, alça, gavalı, göyəm) göbələk xəstəliklərilə sirayətlənmələrinin fitopatoloyi qiymətləndirilmələri zamanı klasterosporioz *(Clasterosporium carpophilum* (Lév.), meyvələrin monilial yanığı-moniliozu və ya boz çürüməsi *(Monilinia laxa* (Aderh.), kokkomikoz (*Coccomyces hiemalis* Higg.), yarpaq qıvrılması (*Taphrina deformans* (Berk.) xəstəlikləri aşkar edilmişdir.

Nektarin şaftalısı, Göycəsoltan alçası, Super gavalı, Armudvari Zoğal, Kəmərli Əzgil sort və formaları müşahidə edilən göbələk xəstəliklərinə immunluq, yüksək davamlılıq və tolerantlıq nümayış etdirmişlər. Həmin sortlar bu xəstəliklərə davamlı sort və formaların yaradlması üçün ənənəvi və marker əsaslı seleksiya işlərinin aparılmasına cəlb ediləcəkdir.

Çəyirdəkli meyvə bitkilərinin göbələk xəstəlikləri ilə mübarizədə kimyəvi və aqrotexniki tədbirlərin vaxtında aparılması iqtisadi və ekoloyi baxımdan daha əhəmiyyətlidir.

ƏDƏBİYYAT

Cəfərov İ.H. Fitopatologiya, Bakı, "Elm", 2007;392. [Jafarov I.H. Phytopathology, Baku, "Elm", 2007;392 (in Azerbaijani)]

Həsənov Z.M. Meyvəçilik, Bakı, 2007;496. [Hasanov Z.M. Fruit growing, Baku, 2007;496. (in Azerbaijani)]

Həsənov Z.M. Pomoterapiya (Meyvələrlə müalicə), Gəncə poliqrafiya ASC, 2007; 89.[Hasanov Z.M. Pomotherapy (Treatment with Fruits), Ganja Polygraphy OJSC, 2007; 89 (in Azerbaijani)]

Məcidli İ.Q. Çəyirdəkli bitkilərin infeksion quruma və kitrə axını xəstəlikləri və onlarla mübarizə üsulları. *AMEA-nın Genetik Ehtiyatlar İnstitutunun elmi əsərləri*, Bakı, 2015;V:202-204.[Majidli I.G. Infectious wilt and canker diseases of leguminous plants and methods of combating them. *AMEA nin Genetik Ehtiyatlar Institutunun elmi asarlari = Scientific works of the Institute of Genetic Resources of ANAS*, Baku, 2015;V:202-204.(in Azerbaijani)]

Məcidli İ.Q. Meyvə və giləmeyvəli bitkilərin xıstılikləri atlası, Bakı, "Universal Nəşriyyat və Çap Evi", 2019; 452.[Majidli I.G. Atlas of the characteristics of fruit and berry plants, Baku, "Universal Publishing and Printing House", 2019; 452 (in Azerbaijani)]

Məcidli İ.Q., Rəkidə Ə. M., Babayeva N. S. Şəfalı bitkilər (1000 dərdin 1001 dərmanı), II hissə, Bakı, "Adiloğlu" nəşriyyatı, 2026;572.[Majidli I.G., Rekida A. M., Babayeva N. S. Medicinal plants (1001 medicines for 1000 ailments), part II, Baku, "Adiloglu" publishing house, 2026;572 (in Azerbaijani)]

Витковский В.Л. Плодовые растение мира, Санкт-Петербург-Москва-Краснодар, 2003[Vitkovsky V.L. Fruit Plants of the World, St. Petersburg-Moscow-Krasnodar, 2003 (in Russian)]

Попкова К.В., Шкаликов В.А., Стройков Ю.А. и др. Общая фитопатология. учебник для вузов, 2-е изд. перераб. и доп., М., Дрофа, 2005;445.[Popkova K.V., Shkalikov V.A., Stroykov Yu.A. et al. General phytopathology. Textbook for universities, 2nd revised and enlarged edition, Moscow, Drofa, 2005;445(in Russian)]

Семенкова И.Г., Соколова Э.С. Фитопатология, М. Изд. Академия, 2003;496. [Semenkova I.G., Sokolova E.S. Phytopathology, Moscow, Academy Publishing House, 2003;496.(in Russian)]

Тарасов В.М., Фаустов В.В., Никоточкина Т.Д. Практикум по плодоводству, М. 1981.[Tarasov V.M., Faustov V.V., Nikotochkina T.D. Practical training in fruit growing, M. 1981.(in Russian)]

ФИТОПАТОЛОГИЧЕСКОЕ ИССЛЕДОВАНИЕ КОСТОЧКОВЫХ ПЛОДОВЫХ РАСТЕНИЙ

Исмаил Меджидли*, Амина Ракида

Институт генетических ресуров Министерства науки и образования Азербайджанской Республики

В статье рассматривается фитопатологическая оценка грибных болезней косточковых плодовых растений (абрикос, персик, черешня, слива, терн, алыча, кизил), выращенных в условиях *ex-situ* в генофондных садах Научно-Исследовательской Базы Института Генетических Ресурсов Товузского и Агдашского районов. Иммунные и устойчивые к грибным болезням сорта и формы, выявленные в ходе фитопатологических исследований, будут включены в селекционный процесс и маркерные исследования. В ходе наблюдений на листьях сорта персика Атирли было зафиксировано 1-2 балла кластероспориоза *(Clasterosporium carpophilum* (Lév.), а на плодах - 1-2 балла монолиального ожога-монилиоза или серой гнили *(Monilinia laxa* (Aderh.). У сорта персика Алибейли заболевание скручиванием листьев было выявлено с 2-3 баллами *(Taphrina deformans* (Berk.). У сортов и форм абрикоса заболевание кластероспориозом *(Clasterosporium carpophilum* Lev.) (абрикосы Атирли, Май-Горанбой, Арик-Фузули, Сахиба, Мурабба) было зарегистрировано с 1-2 баллами, а скручивание листьев *(Taphrina deformans* Berk.) (абрикос Зейнаби безволосый, Бадами) - с 2 баллами. У сортов и форм черешни («Окузурейи», «Кара гилас-Губа») коккомикоз *(Coccomyces hiemalis* Higg.) был зарегистрирован с 1-2 баллами, монолиальная ожоговая монолиоза или серая гниль *(Monilinia laxa* (Aderh.) - с 1-2 баллами, а кластероспориоз *(Clasterosporium carpophilum* Lev.) - с 1-2 баллами. Кластероспориоз *(Clasterosporium carpophilum* Lev.) был зарегистрирован у сортов и форм вишни (Раджабли-1, Красная алыча) с оценкой 1-2 баллах. Заболевание, вызываемое *Clasterosporium carpophilum* (Lév.), было зарегистрировано на листьях сорта Месхети терн оценкой 2 балла. Заболевание, вызываемое *Clasterosporium carpophilum* Lev., было зарегистрировано у сортов и форм сливы (Японская, Плоская японская, Желтая слива-GETM, Слива Гах, Маленькая Гойем, Черная слива) с оценкой 1-2 балла, а также ожог листьев (Красная слива, Желтая длинная, Черная Альбухара, Слива Хатми) с оценкой 1-2 балла. Заболевания не наблюдались у персика сорта Нектарин, черешни сорта Гойчасолтан», а также у сортов Супер сливы, кизил (Грушевидная).

Ключевые слова: *косточковые плоды, ex-situ, Clasterosporium carpophilum* (Lév.), *Monilinia laxa* (Aderh.), *Taphrina deformans* (Berk.), *Coccomyces hiemalis* Higg

PHYTOPATHOLOGICAL STUDY OF STONE FRUIT PLANTS

Ismail Majidli*, Amina Rakida

Genetic Resources Institute, Ministry of Science and Education of the Republic of Azerbaijan

The article discusses the phytopathological assessment of fungal infections in stone fruit plants (apricot, peach, sweet cherry, cherry plum, plum, greengage, blackthorn, cornelian cherry, medlar) cultivated under ex situ conditions in the gene pool orchards of the Tovuz and Agdash Research Bases of the Genetic Resources Institute. According to the phytopathological evaluations, cultivars and forms demonstrating immunity or tolerance to the identified fungal pathogens will be incorporated into conventional and marker-assisted breeding programs. During the observation period, the peach cultivar Atirli exhibited shot hole disease caused by *(Clasterosporium carpophilum* (Lév.*)* on leaves at a severity of 1–2 points, while its fruits were affected by monilial blight (moniliosis) or brown rot caused by *Monilinia laxa* (Aderh.) at 1–2 points. In the peach cultivar Alibeyli, leaf curl caused by *(Taphrina deformans* (Berk.*)* was recorded at a severity of 2–3 points. Among apricot cultivars and forms (Atirli, May-Goranboy, Erik-Fuzuli, Sahiba, Murabba Erik), shot hole disease *(Clasterosporium carpophilum* Lev.*)* was observed at a severity of 1–2 points. Leaf curl *(Taphrina deformans* Berk.*)* was recorded at 2 points in Zeynabi Tuksuz and Badami. In sweet cherry cultivars and forms (Okuzureyi, Gara Gilas-Quba*)*, coccomycosis caused by *(Coccomyces hiemalis* Higg.*)* was detected at a severity of 1–2 points. Additionally, monilial blight (brown rot) caused by *(Monilinia laxa* (Aderh.*)* and shot hole disease *(Clasterosporium carpophilum* Lev.*)* were each recorded at 1–2 points. In cherry plum cultivars and forms (Rajabli-1, Girmizi Alcha), shot hole disease *(Clasterosporium carpophilum* Lev.*)* was observed at 1–2 points. In the blackthorn cultivar Mashati Goyem, shot hole disease *(Clasterosporium carpophilum* (Lév.*)* was recorded on leaves at a severity of 2 points. Among plum cultivars and forms (Yapon, Yasti Yapon, Sari Gavali-GETM, Gakh Gavali, Khirda Goyem, Gara Gavali), shot hole disease *(Clasterosporium carpophilum* Lev.*)* was detected at 1–2 points, whereas leaf scorch was observed at 1–2 points in Girmizi Gavali, Sari Uzun, Gara Albukhara, Khatmi Gavali. No diseases were observed in the nectarine peach, the Goyjasoltan cherry plum and Super plum varieties, nor in the Armudvari cornelian cherry and the Kamarli medlar varieties.

Keywords: *stone fruits, ex-situ, Clasterosporium carpophilum* (Lév.), *Monilinia laxa* (Aderh.), *Taphrina deformans* (Berk.), *Coccomyces hiemalis* Higg

Çapa təqdim etmişdir: Cəbrayıl Təzəxan oğlu Ağayev, a.e.d., dosent
Redaksiyaya daxil olma tarixi: 09.02.2026
Təkrar işlənməyə göndərilmə tarixi: 10.03.2026
Çapa qəbul edilmə tarixi:13.04.2026